**Əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar tərəfindən Azərbaycan Respublikasının *Əqli Mülkiyyət* Agentliyinə ödəniləcək illik haqqın məbləği barədə**[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1593 nömrəli Fərmanının 3.5-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar hesabat ili ərzində müəlliflər və əlaqəli hüquq sahibləri üçün yığdıqları qonorarın 5 (beş) faizi həcmində Azərbaycan Respublikasının *Əqli Mülkiyyət* Agentliyinə illik haqq ödəsinlər.

2. Əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar illik haqqın hər növbəti ilin aprel ayının 1-dək *Azərbaycan Respublikasının Əqli Mülkiyyət* Agentliyinin hesabına köçürülməsini təmin etsinlər.[2]

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 7 fevral 2018-ci il
№ 37

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 27 avqust 2018-ci il tarixli **358** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 avqust 2018-ci il, № 191)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 27 avqust 2018-ci il tarixli **358** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 avqust 2018-ci il, № 191)** ilə adında və 1-ci hissəsində "**Müəllif Hüquqları**" sözləri "**Əqli Mülkiyyət**" sözləri ilə əvəz edilmişdir.

[2] 27 avqust 2018-ci il tarixli **358** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 avqust 2018-ci il, № 191)** ilə 2-ci hissədə "**Azərbaycan Respublikası Müəllif Hüquqları**" sözləri "**Azərbaycan Respublikasının Əqli Mülkiyyət**" sözləri ilə əvəz edilmişdir.